



Bahar fəsli idi. Çöllər, çəmənlər yaşıl don geymişdi. Qış yuxusundan ayılmış bitkilər aləmi min rəngə çalırdı. Lalə elə qızarmışdı ki, elə bil bağrına dağ çəkmişdilər. Nərgiz gülü bağa girən kimi ətrafına baxıb özünü itirmişdi. Bənövşə aciz-aciz boynunu əyib durmuşdu. Qönçələrin açıldığını görən şeyda bülbül sevinir, qızılgülün açıldığına baxıb ah-naləyə başlayırdı. Çəmənlərdə yasəmənlərin xoş rəngi, ətri, gözəlliyi qəlbə fərəh verirdi.

Təbiətin belə gözəl çağında bir alim bağı gəzməyə gəldi. Bu alim bitkilərin dilini bilirdi. O, bağa girən kimi meyvələrin öz-özlərinə fəxr edib öyündüklərini gördü. Alça deyirdi:

—Dünyada mənim kimi gözəl meyvə hanı? Qızdırma xəstəliyinə tutulanların şəfası, ağzı acı olanların davası mənəm. Bütün həkimlərin dediyi kimi, mən baş ağrısının da dərmanıyam.



-1303-
Az... baycan Respublikası P... de... ni
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



Alça sözünü deyib qurtaran kimi gavalı hirslənib özündən çıxdı və Alçaya dedi:

— Ey aciz meyvə, utanmırsan ki, belə öyünürsən? Turşluqdan dişləri qamaşdırırsan, səni yeyən adam ya əzgin olar, ya da iflic. Meyvələr içində səndən əlili yoxdur. Mənim isə adımı Gavalı qoyublar. Yüz min tərəfə saçılan budaqlarım, dürr kimi saf, gah yaşıl, gah qırmızı, gah ağ-qırmızı, gah da zəfəran rənginə çalan meyvələrim var.

Gilas Gavalının səsini eşitcək ona belə tənə vurdu:

— Ey anlamaz, heç utanıb xəcalət çəkmirsən? Bəsdir özünü bu qədər tərif elədin. Səni yeyən adam gündə üç dəfə bal yeməsə səni həzm edə bilməz. Mənim isə əynimdəki gözəl libasım heç bir meyvədə











yoxdur, dənələrim göydəki ulduzlara bənzəyir. Hər budağım bir sərv ağacıdır. Bütün gözəllər mənim həsrətimi çəkirlər.

Bu sözləri eşidən Ərik qışqırıb dedi:

— Gör Gilas necə qudurub! Ey nadan, ey qarğa və sağsağanların yemi! Bu eyib ilə fəxr edib özünü öyürsən! Vücudun bir damcı su ilə sümükdən ibarətdir. Səni yeyən ziyandan başqa bir şey görməz. Səni qurudan bağban axırda zərərini çəkər. Mənim adımı Ərik qoyublar. Gah zümrüd kimi yaşıl, gah da qızıl suyuna salınmış kimi sarı oluram. Bağbanlar məni qurudurlar, karvanlar məni alıb ölkələrə aparırlar. Aparıldığım yerlərdə məni əziz tuturlar, mən hər yeməyin, bişmişin dadı, ləzzətiyəm.

Əriyin dediyini eşidən Alma acıqlanıb qışqırdı:

— Ey qarnı vərəmli, yaxası yarıq! Sənin paltarın tozludur, özün də torpaq dadı verirsən. Xasiyyətini







bilə-bilə yenə özünü öyürsən. Səni yeyənin qarnı şişər, cürbəcür dərdə, bəlaya düşər. Mənim isə adımı Alma qoyublar: üzüm al qırmızıdır, paltarım atlasdandır. İki sevgilinin arasında mən hamıdan məhrəməm. Mən olan məclisdə heç kim məni qoyub başqa meyvələrə əl vurmaz.

Alma bu sözlərlə öyünməkdə ikən Armud irəli çıxıb dedi:

— Ey araqarışdıran Alma! İftixara layiq olsaydın, adın alma yox, al olardı. Mənim adımı isə lətif Armud qoyublar. Yaxşı xasiyyətim var, məni nuşcanlıqla yeyərlər. Hər xəstəyə şəfa, hər dərdə davayam.







Armud özünü bu cür tərifləyərkən birdən Üzüm onun sözlərinə qəzəbləndi və Armuda belə dedi:

— Ey qarnının qurdundan rəngi saralmış, ey zəiflikdən başı yekəlmiş! Özün dərdli ola-ola özgələrə necə əlac edə bilərsən? Keçəl dərman bilsəydi, öz başına əlac edərdi. Əvvəlcə get öz dərdini sağalt, sonra da başqalarına şəfa ver. Mənim adımı isə Üzüm qoyublar. Səbzə, kişmiş, mövüc məndən olur. Meyvələr içində mən hamıdan əzizəm. Sirkə də məndən olur, halva da, şərab da. Kef məclislərinin ziynəti də mənəm, mən!

Heyva bu danışığı eşidən kimi hirsindən rəngi sapsarı saraldı, Üzümə belə dedi:

— Ağzını yum! Yoxsa dilin lal olar! Səndən hazırlanan şərabı içən adamın həm pulu gedər, həm abır-həyası, axırda hamının gözündən düşüb müflis olar, qəmə, qüssəyə batar.

Ləzzət də desən məndədir, dad da, yaxşı ad da. Bütün bağ





və bağçanı mənim ətrim bürüyüb: məni bəzək üçün taxçalara düzür, hər bir ölkəyə aparıb, gözəllərə töhfə verirlər.

Heyvanın öyündüyünü eşidən Narınc dilə gəlib dedi:

—Ay yazıq! Utanmırsan belə sözlər danışırsan?

Özündən xəbərin yoxdurmu ki, kinindən rəngin saralıb? Hamı səni lağa qoyur, sən isə özünü tərifləyirsən. Qarnın qurdla dolub, bədənin qurdlara məskən olub. Mənim isə adımı Narınc qoyub, əynimə elə gözəl paltar geydiriblər ki, həmişə bu paltarım ilə fəxr edirəm. Elə bircə şəklimə baxanın xoşu gələr.



Turunc onun sözlərini eşidib dilləndi:

— Ey yazıq! Paltar nədir ki, onunla fəxr edirsən? Eşşəyin üstünə zərli, naxışlı palan qoymaqla eşşək çönüb adam olmaz. Mən böyük adamların çox xoşladığı meyvəyəm, yemişlər içində padşaham. Bağdakı meyvələrin başçısı, çırağıyam. Rəngim həmişə yaşıldır, görkəmim təzə.

Bu sözləri eşidən Nar, Narınc ilə Turuncun fəxr etdiklərinə gülüb dedi:

— Bu danışıqlar, puç arzular nədir? Rəngə qalsa, mənim meyvəmin, çiçəyimin rəngi hamıdan əladır.



Tərifə layiq bir şey varsa, o da mənim turş-şirinliyimdir. Mən özümü tərifləyib deyirəm ki, Narınc ilə Turunc nökərim, heyva ilə Alma qulluqçularımdır.

Nar özünü bu cür tərif etməkdə ikən bağda Xurma bunları eşitdi, hirslə ayağa qalxdı, Narın üstünə qışqırıb dedi:



—Az təriflə özünü, sən belə tərifə layiq deyilsən! Amma mən bütün Ərəbistanda və başqa ölkələrdə məşhuram, məni Misir və Şam ölkələrindən hər yerə sovqat aparırlar. Məni xoşladıqları üçün cürbəcür adlarla çağırırlar.

Xurma özünü tərifləyib qurtaran kimi Badam qeyzlə nərə çəkib dedi:

— Ey səyyah Xurma, sənin pisliyin elə ondadır









ki, heç vaxt bir yerdə qərar tutmursan; gah bağdadlı olursan, gah isfahanlı. Sənin bu tərifini eşidib lap əridim. Mənim isə o qədər yaxşı xasiyyətim var ki, sadalamağa utanıram. Abinabat, noğul, halva məndən hazırlanır.



Püstə bunları eşidib ağzını açdı, Badamı bu sözlərlə acıladı:

—Ey kinindən ağzı yumulu, arından üzü örtülü Badam! Səndə səxavət az, xəsislik çoxdur. Minlərcə daş dəyməyincə sınmırsan. Mənim isə ağzım qönçə kimi açıqdır. Məni yemək istəyənlər heç vaxt əziyyət çəkməzlər.

Bundan sonra Fısdıq, İydə, Şabalıd, Fındıq,





İnnab, Tut, Albalı, Əncir, Zoğal, Qoz, Lumu sözə başlayıb hərəsi özündən bir əfsanə danışdı.

Şaftalı deyirdi: padşaham, Fısdıq deyirdi ki, ulduzlar içində Ayam. Qoz deyirdi: mən şaham. Fındıq deyirdi: şahənşaham. Lumu deyirdi: mən bu bağın sevimlisiyəm. Şabalıd deyirdi: pəhləvanam. Əncir deyirdi: dünyada məşhuram, İnnab deyirdi: gözələm. Zoğal deyirdi... Albalı da özünü tərifə





başladı, Tut da tuti quşu kimi dil-dil ötdü.

Dincəlib ləzzət almaq üçün bağa səyahətə gəlmiş alim şəxs bağdakı bu səs-küyü eşidib orada qalmaq istəmədi, evinə qayıdarkən yolu bostana düşdü. O, bostanı elə bir vəziyyətdə gördü ki, az qaldı bağrı çatlasın. Burada Xiyar özünü tərifləyir, bacarığından danışıb deyirdi:

—Mən ürək yanğısının







dərmanıyam, məni yeyənlərin ürəyini sərinlədərəm.

Bunu eşidən Gərmək üzünü Xiyara tutub dedi:

— Ay zalım, bu tərif nədir eləyirsən! Sənin bircə quru addan başqa nəyin var? Dadın camış əti dadı verir. Tərifə mən layiqəm ki, həm xəstələrə şəfa, həm ürəklərə səfa verirəm.

Gərməyin tərifini eşidən Qarpız elə nərə çəkdi ki, dəniz kimi cuşə gəldi. O dedi:

—Məgər bu xasiyyətlər məndə yoxdur? Mən sinələrə səfa, gözlərə işıq verirəm. Qızdırma və baş ağrısının dərmanıyam. Rəngim qırmızı, suyum saf və şirindir.

Bunları eşidən Qovun hiddətləndi. Qarpıza verdiyi vəzirliyi, Gərməyə verdiyi vəkillik mənsəbini əllərindən aldı, Xiyarı mülazim, Şamamanı xadim rütbəsindən qovdu







və bostançıya əmr etdi ki, bunların cəzasını versin. Xiyarın qabığını soydurub, ixtiyarını əlindən aldı, Gərməyə bir neçə yerdən yara vurub parçaladı, Qarpızı aradan böldü, Şamamanı bir kənara atıb dedi:

—Bu bostanda sizin şahınız mənəm, bütün meyvələrin başçısıyam! Ətrimin, tayı- bərabəri yoxdur.

Xülasə, Qovun özünü o qədər təriflədi ki, axırda öz-özünə hirslənib başını yardı. Bunları görüb eşidən alim özünü öyən, lovğalananlara nifrət edərək bostandan çıxdı və gedə-gedə öz-özünə deyirdi:

—Axı bu öyünmələr, deyişmələr hamısı yersizdir. Hamı bilir ki, hər bir meyvə özlüyündə xeyirlidir, özünə məxsus dadı, xoş ətri, ürək açan rəngi vardır.





**МУХАММЕД ФИЗУЛИ**

**СПОР ПЛОДОВ**

(на азербайджанском языке)

Азербайджанское
государственное издательство
Баку - 1965

Uşaqlar üçün nəsrlə işləyən: **Kamil Mirbağırov**
Redaktor: **Y. Məmmədov**.
Bədii redaktor: **Y. Ağayev.**
Texniki redaktor: **B. Qurbanova.**
Korrektor: **Z. Ağayeva.**

Yığılmağa verilmiş 28/I-1965-ci il. Çapa imzalanmış 1/IV-1965-ci il.
Kağız formatı 60X92 1/8. Fiziki və şərti ç. v. 2. Uçot nəşr. vərəqi 2. Sifariş 50.
…000. Qiyməti 15 qəp.

…yyatı. Bakı, Hüsü Hacıyev küçəsi, 4.

…r Soveti Dövlət Mətbuat Komitəsinin
…ssar adına mətbəəsi,
… Bayramov küçəsi, 3.





B 1303